MÜNDƏRİCAT

MÜNDƏRİCAT 0

1. STRATEGİYAYA SADİQLİK 1
2. 18+ YAŞ MƏHDUDİYYƏTİ 1
3. OYUN İŞTİRAKÇILARI 3
4. MARKETİNQ 6
5. OYUN DİZAYNI 7
6. SATICILAR VƏ ARAŞDIRMALAR 7
7. İŞÇİLƏR 7
8. OYUN ASILILIĞI 7

1. Strategiyaya sadiqlik

Əvvəlki illərin hesabatlarında da qeyd edildiyi kimi, “Azərlotereya” ASC-də məsuliyyətli oyun prinsiplərinin korporativ idarəetmə sisteminə və əsas biznes proseslərinə inteqrasiyası məqsədilə əvvəlki hesabat dövrlərində müvafiq institusional və təşkilati çərçivə formalaşdırılmışdır. Müşahidə Şurasının 17 oktyabr 2022-ci il tarixli qərarı ilə Avropa Lotereyaları və Toto Assosiasiyasının (EL) “Məsuliyyətli Oyun” standartlarının şirkətin fəaliyyətində sistemli şəkildə tətbiqinin təmin edilməsi üçün İdarə Heyətinə zəruri səlahiyyətlər verilmişdir.

2025-ci ildə əsas diqqət yaradılmış institusional çərçivənin davamlı və effektiv tətbiqinə, məsuliyyətli oyun prinsiplərinin gündəlik əməliyyat və qərarvermə proseslərinə inteqrasiyasının gücləndirilməsinə yönəldilmişdir.

2. 18+ yaş məhdudiyyəti

Məlum olduğu kimi, yetkinlik yaşına çatmayanlarda risklərin qiymətləndirilməsi, impulsların idarə edilməsi və uzunmüddətli nəticələrin nəzərə alınması bacarıqları hələ inkişaf mərhələsindədir. Buna görə oyun zamanı yaranan həyəcan, ani mükafat və uduş gözləntisi onların davranışına böyüklərlə müqayisədə daha güclü təsir göstərə bilər..

Bu səbəbdən EL Responsible Gaming Standards yetkinlik yaşına çatmayan şəxslərin oyundan kənarda saxlanmasını əsas prinsiplərdən biri kimi müəyyən edir. Bu prinsip milli qanunvericilikdə də mövcuddur və bu tələblər birlikdə tətbiq olunur və yaş məhdudiyyəti barədə məlumatın oyunçulara aydın, görünən və əlçatan formada çatdırılır.

Yetkinlik yaşına çatmayan şəxslərin oyunlara cəlb olunmasının qarşısını almaq məqsədilə rəsmi vebsaytlarımızda və marketinq materiallarında oyunların yalnız 18 yaşını tamamlamış şəxslər üçün nəzərdə tutulduğu barədə xəbərdarlıq təqdim olunur. Bu məqsədlə vebsaytlarda müvafiq 18+ işarəsindən istifadə edilir:

azerlotereya.com saytı üzrə:



misli.az saytı üzrə:



18+ yaş məhdudiyyəti barədə məlumat lotereya biletlərinin arxa hissəsində də əks etdirilir:



Necə oynanılır?

- **OYUN 1** və **OYUN 2** xanalarını poz.
- **OYUN 1**: **RƏQƏMLƏRİNİZ**dən hər hansı biri **UDUŞLU RƏQƏM** ilə uyğun olsun, müvafiq məbləği qazan.
- **OYUN 2**: simvolunu tap, altdakı məbləği qazan. simvolunu tap, altdakı məbləğin 5 qatını qazan.

Uduş məbləği	*Ödənilən məbləğ*	*Uduşlu biletlərin sayı*	*Uduşların ümumi məbləği*
5	5,00	462 500	2 312 500
10	10,00	400 000	4 000 000
40	40,00	125 000	5 000 000
200	200,00	10 063	2 012 600
5000	4 550,50	35	175 000

Satışa buraxılmış lotereya biletlərinin ümumi sayı: 4 000 000 (dörd milyon) ədəd.

22222-2222222-222

Uduşun verilməsi üçün bilet tamlığı pozulmadan təqdim olunmalıdır. Cırılmış, zədələnmiş və seriya nömrəsi oxunmayan bilet qəbul olunmur və uduş ödənilmir.

3 000 manatadək uduşlar satış yerlərində nağd, 3 000 manatdan yuxarı uduşlar "Azərlotereya" tərəfindən nağdsız qaydada ödənilir.

Uduş məbləğindən biletin qiyməti və 500 manat çıxıldıqdan sonra 10 faiz dərəcə ilə vergi tutulur.

Uduşların verilmə prosesi və digər bütün məlumatlarla www.azerlotereya.com saytında tanış ola bilərsən.

"Scientific Games – Birləşmiş Krallıq" tərəfindən dizayn və çap olunub.

azərlotereya

4 760171 930198

Analoji 18+ xəbərdarlığı “Misli” satış məntəqələrinin giriş qapılarında da yerləşdirilir:



Bundan əlavə, satıcılarla bağlanan müqavilələrdə 18 yaşına çatmamış şəxslərə lotereya biletlərinin satışına yol verilməməsi ayrıca öhdəlik kimi müəyyən edilir.

3. Oyun iştirakçıları

Məsuliyyətli oyun yanaşmasının məqsədi iştirakçının məlumatlı qərar verməsinə, oyun davranışına nəzarəti etməsinə və mümkün riskləri vaxtında tanımasına şərait yaratmaqdır. Bu səbəbdən oyunçulara oyun qaydaları, uduş ehtimalları və strukturu, yaş məhdudiyyəti, məsuliyyətli oyun prinsipləri,

özünüqiymətləndirmə və özünüistisna vasitələri barədə aydın və əlçatan məlumat təqdim edilir.

EL-in "Məsuliyyətli Oyun" standartlarının VIII bəndinə əsasən, oyun qaydaları iştirakçılar üçün rahat şəkildə əlçatan olmalı, hər bir oyun üzrə uduşlar və uduş strukturu açıqlanmalı, həmçinin məsuliyyətli oyun, yaş məhdudiyyəti və özünüistisna imkanları barədə məlumat operatorun internet resurslarında təqdim edilməlidir. Oyunçu məlumatlandırmasının effektivliyi baxımından məlumatın sadəcə dərc edilməsi kifayət hesab edilmir. Məzmun aydın və əlçatan olmalıdır.

Bu tələblərin bir hissəsi Azərbaycan Respublikasının qanunvericiliyində də nəzərdə tutulur. Oyun şərtlərinin iştirakçılar tərəfindən daha rahat anlaşılması üçün 2023-cü ildən etibarən bir sıra lotereyaların qaydaları və uduşlara dair məlumatları sadələşdirilmiş və daha oxunaqlı formada yenilənərək vebsaytda dərc edilmişdir. Nümunə kimi "Şanslı 6" virtual lotereyasının şərtlərinə baxmaq mümkündür: https://www.azerlotereya.com/lotereya/sansli-6

Oyun iştirakçıları arasında məsuliyyətli davranışı təşviq etmək məqsədilə rəsmi vebsaytlarda "Məsuliyyətlə oyna!" mesajı təqdim olunur. Bu bölmədə oyunçulara oyuna gəlir əldə etmək üsulu kimi deyil, əyləncə forması kimi yanaşmaq, oyun qaydaları ilə əvvəlcədən tanış olmaq, şəxsi oyun limitlərini müəyyənləşdirmək və 18+ yaş tələbinə riayət etmək tövsiyə edilir. Ətraflı məlumat: https://www.azerlotereya.com/mesuliyyetli-oyun

Məsuliyyətli oyun prinsiplərinin iştirakçılar tərəfindən nə dərəcədə düzgün mənimsənildiyini yoxlamaq üçün https://www.misli.az/mesuliyyetli-oyna bölməsində "Doğru, yoxsa Yanlış" adlı maarifləndirici test mövcuddur. 2025-ci il ərzində bu testdə iştirak edən oyunçuların sayı 1552 nəfər olmuşdur.

Şans oyunlarında iştirak əksər şəxslər üçün əyləncə xarakteri daşısa da, müəyyən hallarda oyun tezliyinin və ya oyuna sərf edilən vəsaitin artması, itkilərin geri qaytarılması məqsədilə oyunun davam etdirilməsi, oyunla bağlı maliyyə çətinlikləri və digər problemli oyun davranışı əlamətləri yarana bilər. Bu səbəbdən məsuliyyətli oyun sisteminin mühüm elementlərindən biri oyunçulara öz oyun davranışlarını müstəqil şəkildə qiymətləndirmək və mümkün risk əlamətlərini erkən mərhələdə müəyyən etmək imkanı verən özünüqiymətləndirmə vasitələrinin təqdim edilməsidir.

Bu məqsədlə "Məsuliyyətlə oyna" bölməsində beynəlxalq təcrübədə geniş istifadə olunan Canadian Problem Gambling Index (CPGI) metodologiyası əsasında hazırlanmış özünüqiymətləndirmə testi Azərbaycan dilinə tərcümə edilərək 2022-ci ildən oyunçuların istifadəsinə təqdim edilmişdir. CPGI 1990-cı illərin sonlarında Kanadada həyata keçirilmiş üçillik "Measuring Problem Gambling in Canada" layihəsi çərçivəsində hazırlanmış, onun yekun metodologiyası 2001-ci ildə dərc edilmişdir. Alətin hazırlanmasının əsas məqsədi yalnız ağır problemli oyun hallarını müəyyən etmək deyil, oyun davranışı ilə bağlı risklərin müxtəlif səviyyələrini ümumi əhali arasında ölçməyə imkan verən etibarlı qiymətləndirmə vasitəsi yaratmaq olmuşdur.

CPGI çərçivəsində formalaşdırılmış və hazırda daha geniş istifadə edilən "Problem Gambling Severity Index (PGSI)" doqquz əsas sualdan ibarətdir. Suallar oyun iştirakçısının son 12 ay ərzində oyunla bağlı davranışını və bunun mümkün mənfi nəticələrini qiymətləndirir. Buraya, xüsusilə, ödəyə biləcəyindən artıq məbləğlə oynamaq, eyni həyəcanı əldə etmək üçün daha böyük məbləğlərə ehtiyac duymaq, itirilmiş vəsaiti geri qazanmaq məqsədilə yenidən oynamaq, öz oyun davranışı ilə bağlı narahatlıq hiss etmək kimi göstəricilər nəzərə alınır.

2025-ci ildə həmin testdən istifadə edən oyun iştirakçılarının sayı 277 nəfər olmuşdur.

EL-in "Məsuliyyətli Oyun" standartlarının V bəndində rəqəmsal oyun mühitində oyunçuların müdafiəsinin təmin edilməsi xüsusi əhəmiyyət daşıyan istiqamətlərdən biri kimi müəyyən edilmişdir. Bu yanaşmanın əsas məqsədlərindən biri rəqəmsal kanallar vasitəsilə lotereya və idman mərc oyunlarında iştirak edən şəxsin mümkün olduğu hallarda etibarlı şəkildə identifikasiya edilməsi, yaş məhdudiyyətlərinə əməl olunması və yetkinlik yaşına çatmayan şəxslərin oyun məhsullarına çıxışının qarşısının alınmasıdır.

Bu prinsipə uyğun olaraq, misli.az və azerlotereya.com virtual mühitlərində şəxsi kabinetin yaradılması oyun iştirakçısının şəxsiyyətini təsdiq edən sənəd əsasında həyata keçirilir.

Rəqəmsal kanallarda oyunçuların müdafiəsinin digər mühüm istiqaməti şəxsin öz oyun davranışına nəzarət edə bilməsi və zərurət yarandıqda oyundan könüllü şəkildə uzaqlaşmaq imkanının yaradılmasıdır. EL-in "Məsuliyyətli Oyun" standartlarının V bəndində bu məqsədlə oyunçular üçün könüllü özünüistisna (self-exclusion) mexanizminin əlçatan olması nəzərdə tutulur. Özünüistisna aləti oyunçuya oyun davranışının onun üçün arzuolunmaz istiqamətdə dəyişdiyini düşündüyü, oyuna fasilə vermək istədiyi və ya ümumiyyətlə oyun fəaliyyətini dayandırmaq qərarına gəldiyi hallarda bu qərarı rəqəmsal platforma üzərindən praktik şəkildə həyata keçirmək imkanı verir.

Bu yanaşma əsasında virtual mühitlərimizdə qeydiyyatdan keçmiş oyun iştirakçılarına şəxsi kabinetlərinin istifadəsini müvəqqəti və ya müddətsiz dayandırmaq imkanı təqdim edilmişdir. İstifadəçi bunun üçün şəxsi kabinetdə yerləşən "Şəxsi kabinetin dondurulması" bölməsinə daxil olur, müvafiq səbəbi seçir və öz seçiminə uyğun olaraq kabinetini müddətli və ya müddətsiz şəkildə dondura bilir.

2025-ci il ərzində qeyd olunan funksiyadan 26426 dəfə istifadə edilmişdir.

Bununla yanaşı, virtual mühitdə oyunçunun müdafiəsi yalnız özünüistisna imkanının yaradılması ilə məhdudlaşmır. Oyunçunun öz davranışı barədə məlumatlı qərarlar qəbul edə bilməsi üçün ona oyun fəaliyyəti və maliyyə hərəkətləri barədə aydın və əlçatan məlumatların təqdim edilməsi də mühüm əhəmiyyət daşıyır. Bu baxımdan oyun tarixçəsinə çıxış, balans və əməliyyatların izlənilməsi, habelə məsuliyyətli oyunla bağlı məlumat və alətlərə asan keçidin təmin edilməsi rəqəmsal kanallarda tətbiq olunan əsas oyunçu müdafiəsi elementləri sırasında nəzərdən keçirilir.

Oyun tarixçəsi və balans məlumatlarının oyunçu üçün əlçatan olması məsuliyyətli oyun baxımından şəffaflıq və məlumatlılıq funksiyasını yerinə yetirir. İştirakçı əvvəlki oyun fəaliyyətini nəzərdən keçirməklə oyuna nə qədər tez-tez qoşulduğunu, hansı müddət ərzində nə qədər vəsait istifadə etdiyini və oyun fəaliyyətinin ümumi maliyyə nəticəsini daha obyektiv qiymətləndirə bilər. Bu məlumatlar oyunçuya öz davranışında mümkün dəyişiklikləri görmək, şəxsi oyun vərdişlərini qiymətləndirmək və zərurət yarandıqda oyuna sərf etdiyi vaxtı və vəsaiti azaltmaq, fasilə vermək və ya özünüistisna alətindən istifadə etmək barədə məlumatlı qərar qəbul etməyə kömək edir.

Beləliklə, rəqəmsal kanallarda tətbiq edilən şəxsiyyət vəsiqəsi üzrə qeydiyyat, könüllü özünüistisna, oyun və balans tarixçəsinin izlənilməsi və məsuliyyətli oyun məlumatlarına çıxış bir-birini tamamlayan müdafiə mexanizmləri kimi fəaliyyət göstərir. Bu alətlərin birlikdə tətbiqi oyun iştirakçısının virtual mühitdə daha məlumatlı şəkildə iştirakına şərait yaradır.

4. Marketinq

“Azərlotereya” ASC-nin Məsuliyyətli Marketinq Məcəlləsinə əsasən, 2025-ci ildə də reklam və marketinq kommunikasiyaları oyunçu müdafiəsi, şəffaflıq, düzgün məlumatlandırma və həssas qrupların qorunması prinsipləri əsasında hazırlanmışdır:

- Reklam və digər marketinq materiallarında lotereya və ya idman mərc oyunlarında iştirak sosial status və ya nüfuz əldə etməyin vasitəsi kimi təqdim edilmir; eyni zamanda, oyunlarda iştirak etməyən şəxslərin aşağılanmasına və ya mənfi təqdimatına yol verilmir.
- Kommunikasiyalarda oyun gündəlik həyatın zəruri və ayrılmaz elementi kimi göstərilmir və onun ailə münasibətlərindən, dostlardan, işdən və ya təhsildən daha vacib olduğu təəssüratı yaradılmır.
- Marketinq materiallarında uduşa zəmanət verən, qazanma ehtimalını təhrif edən və ya oyunun maliyyə itkisi riski daşımadığı barədə yanlış təsəvvür yaradan mesajlardan istifadə olunmur. “İtirəcəyin heç nə yoxdur”, “mütləq qazanacaqsan” və “daha çox oyna, daha çox qazan” kimi təhrikedici ifadələrə yol verilmir.

Marketinq kommunikasiyaları hazırlanarkən xüsusilə itkinin geri qaytarılmasına sövq edən mesajlar, bacarıq və ya nəzarət illüziyası yaradan təqdimatlar, həddindən artıq oyun təsvirləri, oyunun maliyyə çətinliklərindən çıxış yolu kimi göstərilməsi və yetkinlik yaşına çatmayanlara cəlbedici ola biləcək süjet elementləri istisna edilir.

- Lotereya və idman mərc oyunları şəxsi və ya maliyyə çətinliklərinin həlli, investisiya vasitəsi və yaxud məşğulluq forması kimi təqdim edilmir. Həmçinin oyunçular əvvəlki itkilərini geri qaytarmaq məqsədilə daha çox oynamağa təşviq edilmir.

- Reklam və promo fəaliyyətlərində həddindən artıq, nəzarətsiz, limitsiz və ya davamlı təkrarlanan oyun davranışını normallaşdıran və təşviq edən məzmundan istifadə edilmir.
- Marketinq kommunikasiyaları yetkinlik yaşına çatmayan şəxsləri hədəfləmir və bu auditoriyaya yönəldilmir.

5. Oyun dizaynı

Yeni və ya əhəmiyyətli dərəcədə dəyişdirilən oyunlar istifadəyə verilməzdən əvvəl məsuliyyətli oyun riskləri baxımından qiymətləndirilir. Qiymətləndirmədə oyunun sürəti və tezliyi, uduş strukturu, oyun mexanikasının aydınlığı, oyunçuda yanlış nəzarət illüziyası yarada biləcək elementlər, həddindən artıq oyunu təşviq edə biləcək xüsusiyyətlər, habelə qanunvericilikdə nəzərdə tutulan uduş fondu tələbləri nəzərə alınır. Məqsəd yalnız formal uyğunluğu deyil, məhsul dizaynının oyunçu davranışına mümkün təsirini də əvvəlcədən qiymətləndirməkdir.

6. Satıcılar

2025-ci ildə Məsuliyyətli Oyun siyasətinin əsas tələbləri üzrə təlimə cəlb olunmuş satıcıların sayı 4215 nəfər olmuşdur. Satış şəbəkəsində məsuliyyətli oyun tələblərinə faktiki riayət səviyyəsini qiymətləndirmək məqsədilə “Gizli müştəri” yoxlamaları aparılmışdır. Yoxlamalar zamanı neqativ hallara rast gəlinməmişdir.

7. İşçilər

Məsuliyyətli oyun üzrə məlumatlandırma yeni işçilərin ilkin təlim proqramının tərkib hissəsidir. Bundan əlavə, işçilər üçün məsuliyyətli oyun risklərini, həssas oyunçu davranışının əlamətlərini, yaş məhdudiyyətlərini, marketinq prinsiplərini və oyunçuların mövcud dəstək vasitələrinə düzgün yönləndirilməsi məqsədilə fərqindəlik təlimləri keçirilir.

8. Oyun asılılığı

Oyun iştirakçısının özündə problemli oyun davranışı və ya asılılıq əlamətləri müşahidə etməsi halında peşəkar dəstəyə çıxış barədə məlumatın əlçatan olması təmin edilir. İştirakçı +99412 566 24 09 nömrəsi və ya *2070 Çağrı Mərkəzi vasitəsilə Azərbaycan Respublikası Psixi Sağlamlıq Mərkəzinə psixoloji dəstək üçün müraciət edə bilər. 2025-ci ildə də bu əlaqə vasitəsinin aktiv olması təmin edilmişdir.